

*Aydın TAĞIYEV*

# ÜÇ ETÜD VƏ YA QÜZEYDƏN GÜNEYƏ GEDƏN YOLLAR...

### *Birinci etüd: "İbrahimovdan Elcanlıyacan..."*

Sadıq Elcanlı - çağdaş nəsrimizin özünə məxsus yaradıcılıq dəsti-xətti olan bir tanınmış nümayəndəsi. Bu gün oxucular onu bir-birindən maraqlı hekayələrin, povestlərin, romanların, eləcə də neçə-neçə aktual, yurd sevgisi ilə dolu sanballı publisistik yazıların, ədəbi-tənqidi esselərin, film ssenarilərinin... müəllifi kimi tanıyırlar!

Mən isə onu hələ ötən əsrin 70-ci illərinin əvvələrində bizim Şabranda yerli rayon qəzetində irili-xırdalı məqalələrin, ilk bədii yaradıcılıq nümunələrinin müəllifi olan Sadıq İbrahimov imzası ilə tanımışam.

İllər keçdi. Sadığın məhəbbətlə qələmə aldığı doğulub boya-başa çatdığı Surra kəndi böyüyüb sonralar daha geniş bir məkanda təsvir etdiyi Sarıyala çevrildi.

Yazıçının təsvir etdiyi Sarıyallılar da daha bir kəndə, bir obaya sığmadı. Sarıyal böyüdükcə, sarıyallılıqlar da böyüdü.

Və beləcə bir gün İbrahimov imzası da Elcanlı təxəllüsünə çevrildi.

### *İkinci etüd: "Taleyimizin ulu saxlancı..."*

Cavanlıq illərimizdən üzü bəri iş-gücdən vaxt-macal tapanda - mənim yolum Şabrandan Bakıya, onun yolu isə Bakıdan Şabrana düşəndə oturub durduğum Sadıq Elcanlı ilə bəzən saatlarla çəkən söz-söhbətimizi, daha doğrusu, onun doğma el-oba ilə bağlı söz-söhbətləri sonralar hekayələrində, povestlərində, romanlarında, publisistik yazılarında, bir sözlə, yaradıcılığında şirin, dadlı-duzlu cümlələrə, sözlərə çevrilib və mən də onları məmnunluqla, oxucu ləzzəti ala-ala oxumuşam.

Düz otuz il əvvəl onun cib dəftərçəmə öz dəsti-xətti ilə yazdığı sətirlərdir:

- Hər dəfə kəndə gələndə, Surranın nağıl kimi nurlu, qədim miflərimiz kimi ulu dağlarına baxanda istər-istəməz uşaqlıq çağları düşür yadıma. Yadıma düşür ki, biz balaca olanda bu dağlar çox uca idi. Və biz böyüdükcə, elə bil, dağlar balacalaşdı... Balacalaşa-balacalaşa qəlbimizə köçdü, qəlbimizdə əlçatmaz, ünyetməz zirvələrə döndü dağlar və başladı min illərin xatirəsini danışmağa. Qopuz səsinin, Qorqud sevgisinin sehri yaşayır bu yerlərdə. Və bu yerlərlə üz-üzə dayanıb ürək söhbətinə daldıqca ana südü kimi doğma bir şerin misraları çiçəkləyir gözümdə:

Könlümün sevgili məhbubi mənim,
Vətənimdir, vətənimdir, vətənim...

***

**Vətən əcdadımızın mədfənidir,**
**Vətən övladımızın məskənidir.**

Babalarımıza mədfən, balalarımıza məskən olan bu yerlər həmişə məni özünə çəkir. Bu torpağın oğlu olmağımla fəxr edirəm...

Kənd qədimlikdi, ululuqdu. Kənd ömrümüzün nağıl, bayatı dünyasıdı, taleyimizin, qəlbimizin ulu saxlancıdı. Hər dəfə bu yerlərə gələndə gözüm gülür, könlüm sevinir, qəlbimin dərinliklərindən bənövşə kimi bir arzu, istək boylanır. Doğma Surra kəndimə üz tutub demək istəyirəm:

- Güllərin həmişə təzə, dağların həmişə uca olsun, üstündən xoşbəxtlik çələngi, günəş təbəssümü əsgilməsin, ana kəndim! Torpağında heykəlləşən ulu kəndim!..

### *Üçüncü etüd: "Başlanğıc olan zülmət..."*

Sadıq Elcanlı bu yaxınlarda çapdan çıxan növbəti qalın həcmli kitabını - nəsr, ədəbi tənqid, publisistik yazılarının toplandığı "Zülmət" adlı kitabını xoş sözlər, arzu və istəklərlə dolu sözlərlə - müəllif imzası ilə yazıb mənə bağışladı.

Müəllif kitabında yazdığı "İşıq və zülmət" adlı ön sözündə birbaşa deyir: "Zülmət" romanı da işıq haqqındadır, daha doğrusu, işığın ölməsi haqqında, insanlıq adlı uzun yolun əvvəlində başlayan sonuna güzgü tutmuşam..."

**Romantik şair Novalis isə deyirdi:**

"Gerçəkliyi qaranlıqlaşdırın, onda o daha aydın görünəcək!"

Bəs bunlar kimin sözləridir, doğru-dürüst bilmirəm: "Hər halda qaranlıq haqqında aydın danışmaq olmaz. Qaranlığa işıq salmaq olmaz. Çünki onda qaranlıq yox olar."

Sadıq Elcanlı bu romanını da əvvəlki əsərlərində olduğu kimi, öz ideyalarına cavab verən mifoloji-fantastik formada yazıb. Bəri başdan burasını da deyim ki, geniş epik vüsətlə qələmə alınan, həcmcə heç də kiçik olmayan romanı az qala bir nəfəsə oxudum.

Yadıma düşmüşkən, bir əhvalat da nəql edim. Hüzr məclisində dünyadan bixəbər nadanın biri özlüyündə axundu guya ki, yerində oturtmaq istəyir:

- Molla əmi, savablarla müjdələdiyiniz o cənnəti, günahlarla qorxutduğunuz cəhənnəmi bəyəm görüb heç gələn var?..

Allahın kitabı müqəddəs Quranla bu nadanı yerində oturtmağın məntiqlə müşkül olduğunu başa düşən axund:

- Elədir, övladım, - deyir. - Ancaq indi sən də bir mənə de görüm, bəyəm sən özün ananın bətnində, qaranlıq dünyada, zülmətdə bilirdinmi ki, belə işıqlı bir dünya da var?!.

Hə, deyəsən, hər şey qaranlıqdan, zülmətdən işığa doğru bir yol gəlir axı...

Və vay o kəslərin halına ki, bilə-bilə işıqdan zülmətə gedir...



"Zülmət"in qəhrəmanı Xasay Xaspoladov kimi!..

Fikrimcə, Sadıq Elcanlının bu romanı müəllifin ön sözündə dediyi kimi, heç də təkcə işığın ölməsi haqqında yox, həm də elə zülmətin özünün də işıqda boğulması haqqındadır.

Romanın adı onun məzmununu, janr və bədii üslubunu, necə deyərlər, elə əvvəlcədən xəbər verir desək, yanılmarıq.

Əsərin fabulası, süjetin mifik-fantastik fonu zülmətlə işığın ziddiyyətləri üzərində qurulub.

Romana zəruri müasirlik, çağdaşlıq səciyyəsi verən yazıçı öz əsərində oxucuda dövrün ictimai, sosial həqiqətləri ilə bağlı yarı real, yarı mifik təəssürat yaratmağa müvəffəq olub. Xasay Xaspoladovun ali hakimiyyətə aludəliliyi, mənsəbpərəstliyi, daxili dünyasının mürəkkəbliyi və ziddiyyətləri, bir vaxt törətdiyi cinayət - qətl hadisəsi romanın fabulasında sənətkarlıqla, oxucunu intizarda saxlayan bir səpgidə qurulub.

Yazıçı əsər boyu təsvir olunan hər bir epizod və hadisənin, əhvalatın sarsıdıcı, həm də gözlənilməz güclü bədii təsir gücünə çevrilməsinə çalışıb.

Butay Eləhmədov ad-soyadlı bir kəndli balası tənhalıqdan, yalqızlığından qəddarlaşaraq beləcə Xasay Xaspoladova çevrilir. Aldadılıb təhqir edilə-edilə, ehtiyac, kimsəsizlik və bir də şöhrətpərəstlik, nəyin və kiminsə hesabına, hətta qanı bahasına olursa olsun məqsədinə çatmaq ehtirası romanın qəhrəmanının vəziyyətini daha da ağırlaşdırır.

**Romandan sətirlər:**

"Qadın azadlığa çıxmışdı. Qoca əri demişdi ki, çıx şəhərə, ürəyin nə istəyirsə al, qadının ürəyi çox şey istəyirdi və ürəyində ürəyini söyə-söyə gedirdi."

Bir də "Qışın gizlətdiklərini bahar aşkara çıxarmışdı..."

Bəs qadın "ürəyində ürəyini" niyə "söyə-söyə" gedirdi və baharın aşkara çıxardığı o gizlinlər nələr idi?..

Oxucu bu sualların cavabını elə bil neçə səhifədən sonra tapır. Demə, bahar aradan illər ötsə də, ürəklərdə ilk sevgini də aşkara çıxararmış. Və qadın o ilk sevginin naminə bir gün qoca ərinə xəyanət edəcəyini ürəyinin dərinliklərində gizli saxlasa da amma əvvəl-axır bir gün keçmiş sevgisini faş edəcəyini, özlüyündə sövqi-təbii hiss etdiyindən idi ki, "ürəyində ürəyini söyə-söyə" gedirdi.

O qadın, adı kimi elə özü də qeyri-adi, bir sözlə həmin o Qəribə xanım duyğularının ikiləşməsindən əzab çəkir və elə bunun da məntiqi nəticəsi olaraq, sonda cəzasını da alır.

Yazıçı öz romanında yaratdığı obrazların həyatiliyi ilə kolliziyalarını mifik-fantastik tərzdə, həm də reallığa, həyat həqiqətinə uyğun olmasına çalışır.

Gərgin daxili mübarizə obrazların dramatizmini daha da artırır.

İrəlicədən, əvvəlcədən duyma, gələcəkdən xəbərvermə, yuxular, vəhlər, günah əməllər üzərində qurulan "Zülmət"də fantastika, mifin mənbəyi real həyat faktlarıdır. Romanda yazıçının mürəkkəb fəlsəfi mühakimələri "Zülmət-işıq" müstəvisində ayrı-ayrı obrazlar vasitəsi ilə öz əksini tapır. Obrazların roman boyu hərəkətlərinin, davranışlarının, qəbul etdikləri həqiqətlərin öz ictimai səbəbləri var. Və Sadıq Elcanlı da öz əsərində kamil bir yazıçı kimi bütün bunları öz oxucusuna təqdim edir.

Burasını da deyim ki, romanda təsvir edilən obrazların bəzilərinin prototipləri mənə tanış adamlardır. Hətta onlarla bir vaxt ünsiyyətdə də olmuşam.

Bunu niyə xatırladıram: Tanıdığım adamları yazıçının belə dəqiqliklə, doğru-dürüst təsvir etməsi məni bir oxucu kimi heyran etdi.

Ancaq burası da var ki, həmin obrazlar təkcə bir coğrafi məkana, yəni bizim Şabran bölgəsinə məxsus deyil. Ümumiləşdirilmiş obrazlardır.

Qaranlıqdan işıqlığa yol gələn insanın ömür yolu elə zülmətə doğru da gedir. Başlancığ olan zülmət həm də axırdır, sondur...